“Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” Publik Hüquqi Şəxs

31 dekabr 2020-ci il tarixinə
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Hesabatı

MÜNDƏRİCAT

MÜSTƏQİL AUDİTORLARIN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat 3
Məcmu Gəlirlər haqqında Hesabat 4
Kapitalda Dəyişikliklər haqqında Hesabat 5
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat 6

MALİYYƏ HESABATLARINA AİD QEYDLƏR

1 Müfəttişlik və Onun Fəaliyyəti 7
2 Müfəttişliyin Əməliyyat Mühiti 8
3 Əsas Uçot Prinsiplərinin Xülasəsi 9
4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr 20
5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi 21
6 Yeni Uçot Qaydaları 22
7 Pul Vəsaitləri və Onların Ekvivalentləri 25
8 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər 26
9 Ticarət və Digər Debitor Borcları 27
10 Digər Aktivlər 27
11 Ticarət və Digər Kreditor Borcları 27
12 Digər Öhdəliklər 27
13 Nizamnamə Kapitalı 28
14 Gəlirlər 28
15 Digər gəlirlər 29
16 İşçi heyəti ilə bağlı xərclər 29
17 Sertifikatların verilməsi üzrə xidmət haqqı 29
18 Agent komissiya xərci 29
19 Digər Xərclər 30
20 Mənfəət vergisi 30
21 Təəhhüdlər və Şərti Öhdəliklər 30
22 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar 30
23 Maliyyə Risklərinin İdarə Edilməsi 31
24 Maliyyə Alətlərinin Ədalətli Dəyəri 35

	Qeyd	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
Aktivlər				
Əmlak, avadanlıq və qeyri-maddi aktivlər	8	432,538	507,053	284,272
Ticarət və digər debitor borcları	9	2,147,206	2,312,272	2,019,831
Pul vəsaitləri və onların ekvivalentləri	7	842,909	980,302	1,202,058
Digər aktivlər	10	208,426	100,384	108,580
Cəmi aktivlər		**3,631,079**	**3,900,011**	**3,614,741**
Öhdəliklər və kapital				
Ticarət və digər kreditor borcları	11	477,376	247,415	140,920
Digər öhdəliklər	12	99,299	115,085	132,108
Cəmi öhdəliklər		**576,675**	**362,500**	**273,028**
Kapital				
Nizamnamə kapitalı	13	1,000,000	1,000,000	1,000,000
Bölüşdürülməmiş mənfəət		2,054,404	2,537,511	2,341,713
Cəmi kapital		**3,054,404**	**3,537,511**	**3,341,713**
Cəmi öhdəliklər və kapital		**3,631,079**	**3,900,011**	**3,614,741**

30 iyun 2021-ci il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Fariz Əliyev
İdarə Heyətinin Sədri

Zaur Həmidov
Maliyyə-iqtisad idarəsinin rəisi, baş mühasib

	Qeyd	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Gəlirlər	14	2,545,257	4,605,584	5,230,477
Digər gəlirlər	15	150	600	2,850
Cəmi gəlirlər		**2,545,407**	**4,606,184**	**5,233,327**
Əməliyyat xərcləri				
İşçi heyəti ilə bağlı xərclər	16	(2,356,945)	(3,354,446)	(2,093,929)
Sertifikatların verilməsi üzrə xidmət haqqı	17	(261,239)	(304,874)	(193,374)
Agent komissiya xərci	18	(46,268)	(117,469)	(30,257)
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin köhnəlmə xərci	8	(79,315)	(72,862)	(20,456)
Tədbir Xərcləri		-	(49,237)	(169,099)
Digər Xərclər	19	(289,026)	(499,183)	(383,791)
Əməliyyat (zərəri)/gəliri		**(487,386)**	**208,113**	**2,342,421**
Məzənnə fərqindən yaranan gəlir/(zərər)		4,279	(64)	58
Mənfəət vergisindən əvvəl (zərər)/mənfəət		**(483,107)**	**208,049**	**2,342,479**
Mənfəət vergisi xərci	20	-	(12,251)	(76,041)
İl üzrə (zərər)/mənfəət		**(483,107)**	**195,798**	**2,266,438**

30 iyun 2021-ci il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Fariz Əliyev
İdarə Heyətinin Sədri

Zaur Həmidov
Maliyyə-iqtisad idarəsinin rəisi, baş mühasib

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
31 dekabr 2018-ci il tarixinə (yenidən təqdim edilmiş)	**1,000,000**	**2,341,713**	**3,341,713**
İl üzrə cəmi mənfəət	-	195,798	195,798
31 dekabr 2019-cu il tarixinə	**1,000,000**	**2,537,511**	**3,537,511**
İl üzrə cəmi zərər	-	(483,107)	(483,107)
31 dekabr 2020-ci il tarixinə	**1,000,000**	**2,054,404**	**3,054,404**

30 iyun 2021-ci il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Fariz Əliyev
İdarə Heyətinin Sədri

Zaur Həmidov
Maliyyə-iqtisad idarəsinin rəisi, baş mühasib

	Qeyd	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları				
Xidmətlərin göstərilməsindən daxilolmalar	14	2,710,324	4,312,143	3,449,723
Digər daxilolmalar	15	150	600	2,850
Əməliyyatlardan yaranan pul vəsaitləri		**2,710,474**	**4,312,743**	**3,452,573**
İşçi heyəti ilə bağlı ödənişlər	16	(2,396,436)	(3,239,216)	(1,696,536)
Agent komissiya xərci ilə bağlı ödənişlər	18	(49,137)	(104,987)	-
Sertifikatların verilməsi üzrə xidmət haqqı ödənişləri	17	(171,993)	(227,662)	(88,369)
Tədbirlərin keçirilməsi ilə bağlı ödənişlər		-	(49,237)	(169,099)
Digər ödənişlər	19	(229,780)	(666,154)	(745,958)
Əməliyyat (fəaliyyətinə yönəldilmiş)/fəaliyyətindən əldə edilən xalis pul axınları		**(136,872)**	**25,487**	**752,611**
İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları				
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi	8	(4,800)	(247,179)	(341,015)
İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları		**(4,800)**	**(247,179)**	**(341,015)**
Maliyyə fəaliyyəti ilə bağlı pul axınları				
Maliyyə fəaliyyətinə yönəldilmiş xalis pul axınları		-	-	-
Xarici valyuta çevirmələrinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		4,279	(64)	58
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım		**(137,393)**	**(221,756)**	**411,654**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri		980,302	1,202,058	790,404
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri		**842,909**	**980,302**	**1,202,058**

30 iyun 2021-ci il tarixində İdarə Heyəti adından təsdiq edilmiş və imzalanmışdır.

Fariz Əliyev
İdarə Heyətinin Sədri

Zaur Həmidov
Maliyyə-iqtisad idarəsinin rəisi, baş mühasib

1 Müfəttişlik və Onun Fəaliyyəti

Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxs (bundan sonra – Müfəttişlik) "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanına əsasən yaradılmışdır.

Müfəttişliyin başlıca vəzifələri aşağıdakılardır

- Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyi və uçuşa yararlılığı ilə bağlı məlumatları, arayışları və təhlilləri Administrasiyaya təqdim edir, habelə mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar mülki aviasiya sahəsində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslərin fəaliyyətinin monitorinqini keçirir;
- Aviasiya hadisələrinin (insidentlərinin) xidməti araşdırılmasının keçirilməsinə dair komissiya nümayəndələrinin məruzə və məlumatlarının obyektivliyi barədə rəylər verir;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları"nın müddəalarına, habelə mülki aviasiya sahəsində beynəlxalq tələblərə uyğun olaraq təftiş və ekspertizalar keçirir, sertifikasiya, icazə və təsdiq prosedurlarının tətbiq olunduğu fəaliyyəti yoxlayır;
- Azərbaycan Respublikasına uçuşlar yerinə yetirən xarici mülki hava gəmilərinin istismarçıları tərəfindən ICAO-nun standartlarına riayət edilməsinin monitorinqini keçirir;
- Hava limanlarının (aerodromların), yerüstü naviqasiya vasitələrinin texniki vəziyyəti və istismarı ilə bağlı məlumatları, arayış və təhlilləri Administrasiyaya təqdim edir;
- Uçuşların təhlükəsizlik səviyyəsinin artırılmasına və aviasiya hadisələrinin qarşısının alınmasına dair təklif və tövsiyələr hazırlayır;
- Mülki aviasiya sahəsində aviasiya personalının nəzəri və praktiki bilik səviyyəsi üzrə testlər keçirir, uçuş heyətinə mürəkkəb uçuş (hava) şəraitlərində uçuşlara icazələrin verilməsi üçün yoxlamalar yerinə yetirir, yekun rəyləri hazırlayır və Administrasiyaya müvafiq sənədləri təqdim edir;
- Hava nəqliyyatı istismarçılarının xüsusi şəraitlərdə uçuş əməliyyatlarının yerinə yetirilməsinə hazırlığını yoxlayır və icazələrin verilməsinə dair rəyləri Administrasiyaya təqdim edir;
- Aerodromların ərazisində hava gəmilərinə texniki və yerüstü xidmətləri göstərən xüsusi avtonəqliyyatın istismarı, uçuşların radio-işıq-texniki təminatı, aerodromların sertifikasiya tələblərinə uyğun istismarı ilə bağlı təftişlər aparır;
- Hava nəqliyyatı istismarçılarına və digər mülki aviasiya subyektlərinə sertifikatların verilməsi və ya bu sertifikatların müddətinin uzadılması üçün sertifikasiya tələblərinə uyğunluğun mütəmadi monitorinqini keçirir və nəticələri Administrasiyaya təqdim edir;
- Azərbaycan Respublikasının hava məkanında aeronaviqasiya, meteoroloji təminat və telekommunikasiya xidmətinin və xidmət vasitələrinin keyfiyyəti ilə bağlı mütəmadi təftişlər keçirir və məlumatları Administrasiyaya təqdim edir;
- Azərbaycan Respublikasının ərazisində (mülki hava limanlarında və onlardan kənarda) mülki hava gəmilərinə münasibətdə qəza-xilasetmə və yanğınsöndürmə işlərinin təşkilinin monitorinqini keçirir;
- Azərbaycan Respublikasının mülki hava gəmiləri ilə baş vermiş aviasiya hadisələri və insidentlərinin uçotunu aparır, habelə aviasiya insidentlərinin, istehsalat hadisələrinin və digər pozuntuların mülki aviasiya subyektləri tərəfindən araşdırılmasında və araşdırma materiallarının tərtib edilməsində iştirak edir;
- Mülki aviasiyada uçuşların təhlükəsizlik vəziyyəti barədə təhlillər hazırlayır;
- Aviasiya hadisələrinin düzgün təsnifatı, aviasiya və fövqəladə hadisələrin, mülki aviasiya subyektləri tərəfindən insidentlərin xidməti araşdırılması ilə bağlı obyektivliyin və keyfiyyətin monitorinqini keçirir;
- Uçuş heyətinin, hava hərəkətinə xidmət dispetçerlərinin və digər aviasiya personalının sağlamlığına tibbi nəzarətin monitorinqini keçirir və müvafiq nəticələri Administrasiyaya təqdim edir;

1 Müfəttişlik və Onun Fəaliyyəti (davamı)

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları"na əsasən hava nəqliyyatında təhlükəli yüklərin saxlanmasına, emalına və daşınmasına dair müəyyən edilmiş tələblərə mülki aviasiya subyektləri tərəfindən əməl olunmasının monitorinqini aparır;

31 dekabr 2020-ci il tarixinə Müfəttişliyin 61 işçisi (31 dekabr 2019-cu il: 60 işçi) olmuşdur.

Müfəttişliyin hüquqi və faktiki ünvanı.

Müfəttişliyin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer: Bakı şəhəri, Xəzər rayonu, Heydər Əliyev Beynalxalq Aeroportu.

2 Müfəttişliyin Əməliyyat Mühiti

Müfəttişlik fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. 2020-ci ildə Azərbaycan Respublikasının Hökuməti iqtisadi, hüquqi, vergi istiqamətli və tənzimləyici sahələrlə bağlı islahatlarını davam edir. Ölkənin iqtisadiyyatı neft və qaz qiymətlərində dəyişikliklərə həssasdır. İqtisadiyyatın neft və qaz sektorundan asılılığını azaltmaq məqsədilə son illər ərzində Hökumət bir sıra iqtisadi və sosial islahatlar həyata keçirmişdir.

Lakin, 2020-ci ildə dünya və region miqyasında baş vermiş aşağıdakı hadisələr Azərbaycan iqtisadiyyatına əhəmiyyətli şəkildə təsir göstərmişdir:

COVİD-19 pandemiyası. 2019-cu ilin dekabr ayında Çinin Vuhan şəhərində ilk dəfə olaraq yeni növ koronavirus xəstəliyi ("COVID-19") qeydə alınmışdır. Dörd aydan sonra, 11 mart 2020-ci il tarixində Dünya Səhiyyə Təşkilatı COVID-19 virusunu pandemiya elan etmişdir. 2020-ci ilin mart-avqust ayları ərzində dünyanın bir çox ölkələrində məhdudlaşdırıcı qapanma tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır ki, bu da pərakəndə satış, səyahət, hotel, ictimai iaşə, əyləncə və digər sahələrdə fəaliyyət göstərən bizneslərin bağlanması ilə nəticələnərək iqtisadi fəalliyəti əhəmiyyətli dərəcədə azaltmışdır. Bunların nəticəsində neftin qiyməti 2020-ci il ərzində tarixdə ən aşağı səviyyəni nümayiş etdirmiş, lakin ilin sonunda müəyyən qədər bərpa olmuşdur.

Hökumət Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə pandemiyanın Azərbaycan iqtisadiyyatına mənfi təsirlərinə qarşı dəstəkləyici tədbirlər paketi təqdim etmişdir ki, bunlara işsiz qalmış fiziki şəxslərə ödənişlərin edilməsi, pandemiyanın mənfi təsirinə məruz qalmış fəaliyyət sahələrinə subsidiyalaşdırılmış kreditlərin ayrılması və digər tədbirlər daxildir.

2020-ci ilin sonunda pandemiyanın yayılmasında azalma əlamətləri qeydə alındığına görə bir çox hökumətlər tərəfindən məhdudiyyətlərin azaldılması dünya maliyyə və əmtəə bazarlarının bərpasına dəstəkləyici təsir göstərmişdir. Azərbaycanda qapanma məhdudiyyətlərinin əksər hissəsi 2021-ci ilin əvvəllərində aradan qaldırılmışdır.

İkinci Dağlıq Qarabağ Müharibəsi. 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında İkinci Dağlıq Qarabağ Müharibəsi başlanmış və 10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış razılaşma ilə başa çatmışdır. Bunun nəticəsi olaraq, Azərbaycan Ermənistan tərəfindən 1990-cı illərin əvvəllərində işğal edilmiş əraziləri üzərində nəzarəti bərpa etmişdir.

Azərbaycan Respublikasının Hökuməti azad edilmiş ərazilərin bərpa edilməsi üzrə uzunmüddətli tikinti proyektlərini nəzərdə tutan işlərə artıq başlamışdır. Azad edilmiş torpaqlarda geniş miqyaslı infrastruktur layihələri və həmçinin regionda iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsi səbəbindən Müfəttişlik rəhbərliyi yaxın gələcəkdə Azərbaycanda nominal ÜDM səviyyələrində artım gözləyir.

Müfəttişliyin rəhbərliyi iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Müfəttişliyin strategiyasının dayanıqlı inkişafını təmin etmək üçün zəruri hesab etdiyi qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi

Maliyyə Hesabatlarının tərtib edilməsinin əsas prinsipləri. Hazırkı maliyyə hesabatları (bundan sonra "maliyyə hesabatları") Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır.

Hazırkı maliyyə hesabatlarında hesabat tarixi 31 dekabr tarixidir.

Hazırkı maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi halda, tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Təqdimat valyutası. Hazırkı maliyyə hesabatlarında, başqa cür qeyd edilmədiyi halda, bütün məbləğlər Müfəttişliyin təqdimat və funksional valyutası olan Azərbaycan manatı ("AZN") ilə ifadə edilmişdir.

Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr 4 saylı Qeyddə açıqlanır.

Uyğunsuzluqların düzəldilməsi. 31 dekabr 2018-ci il tarixində bitən il üzrə BMHS uyğun hazırlanmış hesabatda əmlak və avadanlıq, debitor borclarının, kreditor borclarının və digər öhdəliklərin tanınması zamanı aşağıdakı uyğunsuzluqlar aşkar edilmişdir:

- 2018-ci ildə əldə olunan 1,981 AZN məbləğində əmlak və avadanlıqların 2018-ci ildə tanınmamışdır.
- 2018-ci ildə qazanılmış lakin hesab fakturası 2019-cu ildə göndərilmiş 50,700 AZN məbləğində gəlir 2018-ci ilin sonunda debitor borcu kimi tanınmamışdır.
- Azərbaycan Dövlət Mülki Aviasiya Agentliyi arasındakı müqaviləyə əsasən sərnişindaşıma və karqo gəlirlərindən başqa digər bütün qazanılan gəlirlərin 20% xidmət haqqı kimi Agentliyə ödənilir. 2018-ci ilin 3-cü və 4-cü rübündəki 81,112 AZN xidmət haqqı kreditor borcu kimi tanınmamışdır.
- Silk Way Aviaşirkəti MMC ilə Müfəttişlik arasındakı müqaviləyə əsasən yığımdan agentin vasitəçilik xidmətlərinə görə 1% agent komissiyası Silk Way Aviaşirkəti MMC-yə ödənilməlidir. 2018-ci il üçün hesablanmış 30,257 AZN agent haqqı kreditor borcu kimi tanınmamışdır.
- 31 dekabr 2018-ci il tarixinə istifadə edilməmiş məzuniyyət günlərinə görə 45,769 AZN məbləğində olan kompensasiya ödənişi və həmin məbləğə hesablanmış 10,298 AZN məbləğində sosial müavinətlər ilin sonunda öhdəlik kimi tanınmamışdır.
- 2018-ci ilin bölüşdürülməmiş mənfəətin açılış balansında 16,513 AZN məbləğində uyğunsuzluq vardır .

Bu uyğunsuzluqlara onların təsirinə məruz qalmış əvvəlki dövr üzrə hər bir maliyyə hesabatı sətrinin yenidən təqdim edilməsi ilə düzəliş edilmişdir:

	31 dekabr 2018-ci il
Əmlak, avadanlıq və qeyri-maddi aktivlər	1,981
Ticarət və digər debitor borcları	50,700
Digər aktivlər	2,507
Cəmi aktivlər	**55,188**
Ticarət və digər kreditor borcları	135,262
Vergi və digər öhdəliklər	56,067
Cəmi öhdəliklər	**191,329**
Kapitala xalis təsir	**(136,141)**

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

	31 dekabr 2018-ci il tarixində bitən il
Gəlirlər	67,900
Əməliyyat xərcləri	
İşçi heyəti ilə bağlı xərclər	(210,843)
Sertifikatların verilməsi üzrə xidmət haqqı	(105,005)
Agent komissiya xərci	(30,257)
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin köhnəlmə xərci	(772)
Digər Xərclər	159,349
Əməliyyat gəliri	**(119,628)**
İl üzrə mənfəətə xalis təsir	**(119,628)**

Cari və uzunmüddətli təsnifləşdirmə. Müfəttişlik maliyyə vəziyyəti haqqında hesabatda aktiv və öhdəliklərini cari/uzunmüddətli təsnifat əsasında təqdim edir.

Aktiv aşağıdakı hallarda cari hesab edilir:

- Adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən sonra 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- hesabat tarixindən sonra ən azından 12 ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər hallarda aktivlər uzunmüddətli kimi təsnifləşdirilir.

Öhdəlik aşağıdakı hallarda cari hesab edilir:

- Adi əməliyyat dövründə onun ödənilməsi nəzərdə tutulduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Öhdəliyin yerinə yetirilməsinin hesabat tarixindən ən azı on iki ay uzadılması kimi şərtsiz hüququn olmadığı halda.

Həll olunması kapital alətlərinin buraxılması ilə nəticələnən öhdəlik şərtləri onun təsnifləşdirilməsinə təsir etmir.

Müfəttişlik bütün digər öhdəlikləri uzunmüddətli kimi təsnifləşdirir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnifləşdirilir.

COVİD-19 pandemiyasının təsiri. 2020-ci ildə dünyanın bir çox hökumətləri kimi, Azərbaycan Respublikasının Hökuməti COVİD-19 pandemiyasının yayılmasına qarşı müxtəlif tədbirlər həyata keçirmişdir ki, bunlar əsasən xüsusi karantin rejimi, müəyyən sahələrin qapanması və səyahət məhdudiyyətlərini nəzərdə tutur. Bu tədbirlər pandemiyanın yayılması ilə birgə dünyada biznes fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edərək fond, valyuta və əmtəə birjalarında mühüm qeyri-sabitliyə səbəb olmuşdur və çox saylı fəaliyyət sahələri üzrə bizneslərə təsirini davam etdirməsi gözlənilir.

COVİD-19 pandemiyasının geniş miqyasda yayılmasının qarşısını almaq məqsədilə 31 mart 2020-ci il tarixində sahibkarların üzləşdiyi zərərin azaldılması və sahibkarlığa dövlət dəstəyinin göstərilməsi üçün "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən təklif proqramı təsdiqlənmişdir.

Səyahət məhdudiyyətləri Müfəttişliyin gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olsa onun fəaliyyətində əhəmiyyətli məşdudlaşdırmalarla nəticələnməmişdir

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Lakin buna baxmayaraq, COVID-19-un Müfəttişliyin əməliyyat və maliyyə nəticələrinə təsiri pandemiyanın davam etmə müddəti, yayılması və intensivliyi kimi gələcək hadisələrdən asılıdır ki, bu hadisələrin proqnozlaşdırılmasında qeyri-müəyyənlik mövcuddur. Beləki, pandemiyanın kəskin beynəlxalq səhiyyə krizisi kimi inkişafının davam etməsi Müfəttişliyin fəaliyyətinə, əməliyyatlarının nəticələrinə, maliyyə vəziyyətinə və pul vəsaitlərinin axınına əhəmiyyətli dərəcədə mənfi təsir göstərə bilər.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları. Təsnifat formalarından asılı olaraq maliyyə alətləri gələcəkdə ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivin satılması zamanı alınacaq və ya öhdəliyin ötürülməsi üçün ödəniləcək qiymətdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aktivin və ya öhdəliyin əsas bazarında və ya əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarında aparılması ehtimal edilir. Müfəttişliyin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Müfəttişlik müvafiq müşahidə olunan giriş məlumatlarının istifadəsini maksimallaşdırmaq və müşahidə olunmayan giriş məlumatlarının istifadəsini minimallaşdırmaqla müəyyən şərtlərə uyğun olan və ədalətli dəyəri ölçmək üçün kifayət məlumətın mövcud olduğu qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyərləri qiymətləndirilmiş və ya açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir olunan ədalətli dəyər iyerarxiyası daxilində ədalətli dəyərin qiymətləndirilməsi üçün bütövlükdə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında kateqoriyalara aid edilir:

- Səviyyə 1 - oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda bazar qiymətləri (təshih edilməmiş) mövcud olanlar;
- Səviyyə 2 - ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 - ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında ədalətli dəyərlə təkrarlanan əsasda tanınan aktiv və öhdəliklər üçün Müfəttişlik hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün bütövlükdə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

Amortizasiya olunmuş dəyər əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə hər hansı ehtiyatı çıxmaqla aktivlərin maya dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq maliyyə vəziyyəti haqqında hesabatın aktiv və öhdəliklərinin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi ("EFD") metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və yə müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən sair dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir.

Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə aktivi

İlkin tanınma və ölçmə. Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə ("AC"), digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə tanınan ("FVTOCI") aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən ("FVTPL") alətlər kimi təsnifiəşdirilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Müfəttişliyin bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır.

Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Müfəttişliyin praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Müfəttişlik ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə öiçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir.

Əhəmiyyətli maiiyyələşdirmə komponentinin daxil olmadığı və ya Müfəttişliyin praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini ("SPPI") təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "SPPI testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

Müfəttişliyin maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Müfəttişliyin biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Müfəttişlik aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

Sonrakı ölçülmə. Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri 4 kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxanlanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətii dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

Amortizasiya olunmuş dəyərdə maliyyə aktivləri (borc alətləri). Bu kateqoriya Müfəttişliyə daha uyğundur. Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Müfəttişlik maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan EFD metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Müfəttişliyin amortizasiya hesablanmış dəyərlə ölçülən maliyyə aktivlərinə cari hesabları və üçüncü tərəflərdən ticarət debitor borcları daxildir.

FVTOCI kateqoriyasına aid maliyyə aktivləri (borc alətləri). Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Müfəttişlik borc alətlərini digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır;
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

FVTOCI kateqoriyasındakı borc ələtləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar mənfəət və ya zərər haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər digər məcmu gəlir ilə tanınır. Uçotdan çıxarılanda digər məcmu gəlirdə tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür. Müfəttişlikdə FVTOCI kateqoriyasına aid borc alətləri mövcud deyildir.

FVTOCI kateqoriyasına aid maliyyə aktivləri (kapital alətləri). İlkin tanınmada Müfəttişlik 32 saylı *"Maliyyə alətləri: Təqdimat"* adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan aiətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərərdə digər gəlir kimi tanınır. Lakin Müfəttişliklik alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər digər məcmu gəlirdə tanınır.

FVTOCI kateqoriyalı kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır. Müfəttişlikdə FVTOCI kateqoriyasına aid kapital alətləri mövcud deyildir.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri. Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan ("FVTPL") maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və yə ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir. Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur.

Effektiv hedcinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılarsa və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə mənfəət və ya zərər haqqında hesabatda tanınır. Müfəttişlikdə FVTPL kateqoriyasına aid maliyyə aktivləri mövcud deyildir.

Maliyyə aktivlərinin uçotdan silinməsi. Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və yə analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Müfəttişliyin maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Müfəttişlik özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Müfəttişlik; (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Müfəttişlik aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Müfəttişlik nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Müfəttişliyin həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir.

Bu halda Müfəttişlik əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Müfəttişliyin saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Müfəttişlikdən tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

Maliyyə aktivlərinin dəyərsizləşməsi. Maliyyə aktivlərinin dəyərsizləşməsinə aid olan əlavə məlumatlar aşağıdakı qeydlərdə təqdim edilir:

- Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (4 saylı Qeyd);
- Maliyyə Risklərinin İdarə Edilməsi (22 saylı Qeyd).

Müfəttişlik mənfəət və zərərdə ədalətli dəyərlə əks olunmayan bütün borc alətləri üçün gözlənilən kredtt zərərləri ("ECL") üçün ehtiyatı tanıyır.

Ticarət debitor borcları və sair müqavilə aktivləri üçün Müfəttişlik ECL-in hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir. Beləliklə, Müfəttişlik kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində aktivin müddəti ərzində ECL əsasında kredit zərərini tanıyır. Müfəttişlik debitorlara və iqtisadi mühitə xas olan perspektiv amilləri nəzərə almaqla düzəliş edilmiş Müfəttişliyin keçmiş dövrlər üzrə kredit zərəri əsasında ehtiyat matrisasını yaratmışdır.

Maliyyə öhdəlikləri

İlkin tanınma və ölçmə. Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri, kreditor borcları və ya effektiv hedcinqdə hedcinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. Müfəttişliyin maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları öhdəlikləri daxildir.

Sonrakı ölçmə. Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəliklərinə ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə, ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hedcinq münasibətlərində hedcinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə ələtlər də effektiv hedcinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır. İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur.

Müfəttişlikdə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan hər hansı maliyyə öhdəliyi mövcud deyildir.

Kreditlər, borc öhdəlikləri və kreditor borcları. Bu kateqoriya Müfəttişlik üçün daha uyğundur.

İlkin tanınmadan sonra faiz hesablanan kreditlər, borc öhdəlikləri və kreditor borcları daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə, satınalma üzrə hər hansı diskont və ya əlavəni və EFD-nin tərkib hissəsi olan haqq və ya xərcləri nəzərə almaqla, amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərərdə öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də EFD-in amortizasiyası prosesi vasitəsilə əks etdirilir. EFD-nin amortizasiyası mənfəət və ya zərər haqqında hesabatda maliyyə xərclərinə daxil edilir.

Maliyyə öhdəliklərinin uçotdan silinməsi. Müfəttişlik maliyyə öhdəliyini bu öhdəlik üzrə məsuliyyətdən azad olduqda, həmin öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda uçotdan silir. Mövcud maliyyə öhdəliyi eyni borc verən tərəfindən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə başqa bir öhdəlik ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, bu cür mübadilə və ya dəyişiklik ilkin öhdəliyin uçotdan silinməsi və yeni öhdəliyin uçota alınması kimi nəzərə alınır. Müvafiq balans məbləğindəki fərq mənfəət və ya zərər haqqında hesabatda uçota alınır.

Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi. Müfəttişlik maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı netto əsasda həyata keçirmək, ya da eyni aktvi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

Əmlak və avadanlıqlar. Alınmış aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və müvafiq aktivlər və borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Əmlak və avadanlıqların alınması ilə əvəzləşdirilə bilməyən əlavə dəyər vergisi Müfəttişlik tərəfindən kapitallaşdırılır. Əməliyyat fəaliyyətinə aid olan əvəzləşdirilə bilməyən əlavə dəyər vergisi mənfəətə və ya zərərə aid edilir. Daha sonra, əmlak və avadanlıqlar maya dəyəri ilə göstərilir və tələb olunanda yığılmış köhnəlmə və dəyərsizləşmə üçün ehtiyatı çıxılır.

Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əmlak və avadanlıqlarm əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxanlır.

Hər bir hesabat tarixində rəhbərlik əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa dəyərini təxmin edir.

Aktivin bərpa dəyəri, aktivin və ya pul vəsaitlərini yaradan biznes vahidlərinin satış xərcləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən dahə yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri digər məcmu gəlir haqqında hesabatda qeydə alınır.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Dəyərsizləşmə zərərinin daha mövcud olmamasına və ya azala biləcəyinə dair əlamətlər olduqda, aktiv və ya pul vəsaitiərini yaradan vahid üzrə əvvəlki illərdə qeydə alınmış dəyərsizləşmə zərəri ləğv edilir. Əmlak, tikili və avadanlığın satışından yaranan gəlir və zərər alınmış vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və yə zərərə daxil edilir.

Köhnəlmə. Köhnəlmənin hesablanması aktiv istifadə üçün hazır olduğu tarixdən başlanır. Torpaq və başa çatdırılmamış tikililər üçün köhnəlmə hesablanmır. Əmlak və avadanlıqların digər komponentləri üzrə köhnəlmə düz xətt metoduna əsasən aşağıdakı ehtimal edilən illik dərəcələr ilə hesablanır:

	İllik dərəcələr
Nəqliyyat vasitələri	10%
Kompüterlər və rabitə avadanlığı	20%
Mebel və qurğular	20%

Əmlak, tikili və avadanlığın faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda onların istifadə müddətlərindəki dəyişikliklər sonrakı dövrdən etibarən uçota alınır.

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Müfəttişliyin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Əgər Müfəttişlik aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözləyərsə və əlavə qalıq dəyərinin mövcud olmadığı nəzərdə tutulursa, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir hesabat tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

Qeyri-maddi aktivlər. Müfəttişliyin qeyri-maddi aktivləri müəyyən faydalı istifadə müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Proqram təminatı ilə bağlı bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış qeyri-maddi aktivlər təxmin edilən faydalı istifadə müddəti 10 il ərzində düz xətt metodu ilə amortizasiya olunur.

Ticarət debitor borcları. Ticarət debitor borcu müştəri qarşısında şərtsiz ödəniş məbləğinə hüquq yarandığı zaman (yəni ödəniləcək məbləğin ödənilməsi üçün yalnız müəyyən müddətin keçməsi tələb olunsun) tanınır. Ticarət debitor borclarının ilkin və sonrakı tanınması 3 saylı Qeydin *Maliyyə aktivləri* bölməsində açıqlanır.

Mal-material ehtiyatları. Mal-material ehtiyatları maya dəyəri ilə mümkün xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Müfəttişliyin mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri daxildir. Müfəttişliyin mal-material ehtiyatları əsasən az qiymətli ofis ləvazimatlarından ibarətdir. 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə Müfəttişliyin mal-material ehtiyatları qalıqları olmamışdır.

Avans ödənişləri. Avans ödənişləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində qeydə alınır. Aktivi əldə etmək üçün avans ödənişləri Müfəttişlik bu aktiv üzərində nəzarət əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Müfəttişliyə daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu mal və xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar, yaxud xidmətlərin əldə edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il/dövr üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır. 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə Müfəttişliyin avans ödənişlərinin qalıqları olmamışdır.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentlərinə cari hesablar üzrə məhdudiyyət qoyulmamış vəsaitlər daxildir. Verilmə tarixində istifadəsinə üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ("SPPI") ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

Ticarət kreditor borcları. Ticarət kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Ticarət kreditor borclan ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

Nizamnamə kapitalı. 1 saylı Qeyddə göstərildiyi kimi, Müfəttişlik dövlət təşkilatıdır.

Şərti öhdəliklər. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal ediləndə maliyyə hesabatlarında açıqlanır.

Müştərilərlə müqavilələrdən əldə edilən gəlirin uçotu. Müştərilərlə müqavilələrdən əldə edilən gəlir mallar və ya xidmətiər üzrə nəzarət Müfəttişliyin həmin malların və ya xidmətlərin müqabilində gözlədiyi ödənişi əks etdirən məbləğdə müştəriyə köçürüləndə tanınır. Müştərilərlə müqavilələrdən əldə edilən gəlir məcmu gəlirlər haqqında hesabatda "Gəlirlər" sətrinin tərkibində tanınır və aşağıdakılardan ibarətdir:

"CAA Regulation Tax" yığmları Müfəttişlik tərəfindən Azərbaycan Respublikasının beynəlxalq hava limanlarından uçub gedən hər bir sərnişinə (2 yaşadək uşaqlar, tranzit sərnişinlər ve daxili uçuşlar istisna olunmaqla) görə 1 (bir) Avro məbləğində müəyyən edilir.

"Civil Aviation cargo tax" yığımları Azərbaycan Respublikasının beynəlxalq mülki hava limanlarından beynəlxalq hava xəttləri ilə uçub gedən və digər dövlətlərdə qeydiyyatda olan yük hava gəmilərinin (Azərbaycan Respublikasına humanitar uçuşlar, BMT və Qırmızı Xaç xətti ilə reyslər yerinə yetirən, axtariş və xilasetmə əməliyyatlarina cəlb olunan, fəlakətə uğrayan və kommersiya yüklənməsi dayişmədən geriyə uçuşlar həyata keçirən hava gəmiləri istisna olunmaqla) maksimal çəkisinin hər tonuna görə 0,50 Avro məbləğində müəyyən edilir.

Xidmətlər üzrə gəlirlər hava gəmilərinin uçuşa yararlılığını yoxlanması, uçuşa yararlılıq sertifikatlarının verilməsi və sair xidmətlərdən ibarətdir.

Aşağıdakılar Müfəttişliyin gəlirinə tətbiq edilmir:

- Dəyişkən ödəniş nəzərdə tutan müqavilələr;
- Malların geri qaytarılması hüququ;
- Həcmə görə endirim.

Mühüm maliyyələşdirmə komponenti. Bəzi əməliyyatlar üçün, ödənişin alınması məhsulların və ya xidmətlərin müştəriyə ötürülməsi vaxtı ilə üst-üstə düşmür.

15 saylı MHBS-ə əsasən, əməliyyat qiymətini müəyyən edərkən, Müfəttişlik pulun zaman dəyərinin təsirini nəzərə alaraq vəd edilmiş ödəniş məbləğinə o halda düzəliş edir ki, müqavilə tərəflərinin razılaşdırdığı (dəqiq və ya nəzərdə tutulmuş şəkildə) ödəniş müddətləri malların və ya xidmətlərin müştəriyə ötürülməsinin maliyyələşdirilməsi nəticəsində müştərinin və ya Müfəttişliyin mühüm fayda əldə etməsini təmin etmiş olsun. Belə hallarda, müqavilə mühüm maliyyələşdirmə komponentini ehtiva etdirir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Mühüm maliyyələşdirmə komponenti maliyyələşdirmə vədinin müqavilədə aydın şəkildə bəyan edilməsindən və ya müqavilə tərəflərinin razılaşdırdığı ödəniş şərtlərində nəzərdə tutulmasından asılı olmayaraq mövcud ola bilər. Bu cür əməliyyatlara Müfəttişliyin müştərilərdən avans ödənişi alması halları aid edilə bilər. Lakin Müfəttişliyin müştərilərdən avans ödənişinin əldə edilməsi vaxtı ilə Müfəttişliyin bu müqavilələr üzrə malları transfer etməsi vaxtı arasındakı dövr bir il və ya daha az müddət təşkil etdiyindən, Müfəttişlik 15 saylı MHBS-də nəzərdə tutulmuş praktiki məqsədəuyğun haldan istifadə edərək vəd edilmiş ödəniş məbləğinə düzəliş etmir.

Müqavilə qalıqları

Müqavilə aktivləri. Müfəttişliyin müştəriyə ötürdüyü mal və ya xidmətlər müqabilində aldığı ödəniş məbləği üçün onun konkret müddətin bitməsindən başqa digər bir səbəbdən (məsələn, müəssisənin gələcək fəaliyyətindən) asılı olan hüququdur. Müfəttişlik təqdim etdiyi xidmət müqavilələri üzrə qeyd-şərtsiz ödəniş əldə etmək hüququna malik olduğu üçün bütün bu cür məbləğləri ticarət debitor borcu kimi tanıyır.

Müqavilə öhdəlikləri. Müştəri tərəfindən ödənişi edilmiş (və ya ödənişinin vaxtı çatmış) mal və ya xidmətlərin müştəriyə ötürülməsi ilə bağlı Müfəttişliyin öhdəliyidir. 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə Müfəttişliyin müqavilə öhdəlikləri mövcud olmamışdır.

İcarələr. Müqavilənin başlanğıcında Müfəttişlik müqavilənin özünün və ya onun tərkibində icarə olub-olmadığını yəni, müqavilənin özündə müəyyən edilmiş aktivin istifadəsi üzrə nəzarət hüququnun, ödəniş qarşılığında müəyyən vaxt müddəti üçün ötürülməsini nəzərdə tutub-tutmadığını qiymətləndirir.

Müfəttişliyin icarəçi qismində çıxış etdiyi və 1 yanvar 2019-cu il tarixində və bu tarixdən sonra başlayan hesabat dövrləri üçün 16 saylı MHBS-in icbari şəkildə tətbiqinə məruz qala bilən icarə müqavilələri aşağıdakılardan ibarətdir:

- *İnzibati məqsədlər üçün ofis binasının icarəsi.* Inzibati məqsəd üçün istifadə olunan ofis binası Azal QSC-yə məxsusdur və əvəzsiz istifadə üçün Müfəttişliyə təqdim edilmişdir. Müfəttişliyin rəhbərliyi Müfəttişliyin ofisinin yeni binaya köçürülməsinə dair səhmdarın (Azərbaycan Respublikasının) niyyətində qeyri-müəyyənliyin mövcudluğu səbəbindən gözlənilən icarə müddətini düzgün şəkildə müəyyənləşdirə bilmir. Buna görə də Rəhbərlik bu icarə müqaviləsi üzrə 16 saylı MHBS-in tələblərini tətbiq etməmişdir və 31 dekabr 2020-ci il tarixində başa çatmış il və 23 avqust 2019-cu il tarixindən 31 dekabr 2019-cu il tarixinədək olan dövr üzrə icarəni əməliyyat icarəsi kimi tanımışdır.
- *İnzibati məqsədlər üçün konfrans zalının icarəsi.* Konfrans zalının icarəsi bir illik dövr üçün nəzərdə tutulduğuna və icarə müqaviləsi bitdikdən yeni icarədar tender yolu ilə seçildiyinə görə Rəhbərlik bu icarə müqaviləsi üzrə 16 saylı MHBS-in tələblərini tətbiq etməmişdir və 31 dekabr 2020-ci il tarixində başa çatmış il və 23 avqust 2019-cu il tarixindən 31 dekabr 2019-cu il tarixinədək olan dövr üzrə icarəni əməliyyat icarəsi kimi tanımışdır.

İşçi heyəti ilə bağlı ödənişlər və müvafiq ayırmalar. Əmək haqları, maaşlar, Azərbaycan Respublikasının Sosial Müdafiə Fonduna ayırmalar, ödənilmiş illik məzuniyyət və xəstəliklə bağlı məzuniyyət, mükafatlar və qeyri-monetar faydalar (misal üçün, sağlamlıqla bağlı xidmətlər) Müfəttişliyin işçiləri müvafiq xidmətləri göstərdiyi ildə hesablanır.

Mənfəət vergisi. Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya sair dövrdə vergi təsiri digər məcmu gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və fərdi maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

Təxirə salınmış vergi aktivi, qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizasiya ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktiv və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır. Təxirə salınmış mənfəət vergisi öhdəliyi, Müfəttişliyin müvəqqəti fərqlərin bərpası dövrünə nəzarət etməsi və müvəqqəti fərqlərin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal olunan hallar istisna olmaqla, vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün hesablanır.

Mənfəət və ya zərərə daxil olmayan əməliyyatlara aid təxirə salınmış vergi ya digər məcmu gəlirdə, ya da birbaşa kapitalda tanınır.

Təxirə salınmış mənfəət vergisi, aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatın, eləcə də əmlak, tikili və avadanlıqların ilkin dəyəri üzrə müvafiq düzəlişlərin uçota alınması və sonrakı dövrdə qiymətləndirilməsindən yaranan müvəqqəti fərqlər üçün tam şəkildə hesablanır.

Müfəttişlik yaradılmış vergi öhdəliklərini Vergi məcəlləsinin tələblərinə müvafiq qaydada hesablanaraq büdcəyə ödənilir.
Eyni zamanda Müfəttişlik Vergi Məcəlləsinin 165.1.4-cü maddəsinin müddəalarına əsasən beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsinə, xidmətlərin göstərilməsinə görə ƏDV-yə sıfır (0) faiz dərəcəsi ilə cəlb olunur. Buna görə də sıfır (0) dərəcəsi ilə ƏDV tutulan əməliyyatlar ƏDV cəlb olunan əməliyyatlar hesab edilir və Müfəttişlik tərəfindən mallar (işlər, xidmətlər) alınarkən nağdsız qaydada ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilir.

Xarici valyutanın çevrilməsi. Müfəttişliyin funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Müfəttişliyin funksional valyutası və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər, Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir.

Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nin rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir.

Xarici məzənnə fərqlərindən yaranan bütün gəlir və zərərlər mənfəət və ya zərər hesabatında "Məzənnə fərqindən yaranan gəlir/(zərər)" maddəsində təqdim edilmişdir. İlin sonuna qüvvədə olan valyuta çevrilmələri tarixi dəyərdə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir.

Kapital investisiyaları daxil olmaqla, xarici valyutada ədalətli dəyərdə qiymətləndirilmiş qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixdə qüvvədə olan məzənnə ilə çevrilirlər.

Xarici valyutada ədalətli dəyərdə qiymətləndirilmiş qeyri-monetar maddələr üzrə məzənnə dəyişikliyinin təsiri ədalətli dəyərdən gəlir və ya zərərin bir hissəsi kimi qeyd edilir.

3 Əsas Uçot Prinsiplərinin Xülasəsi (davamı)

İstifadə edilmiş qüvvədə olan valyuta məzənnələri aşağıdakılardır:

	Aşağıdakı tarixdə bitən il üzrə		
	31 dekabr 2020-ci il	**31 dekabr 2019-cu il**	**31 dekabr 2018-ci il**
İlin sonuna məzənnə (AZN/USD)	1.7	1.7	1.7
İlin sonuna məzənnə (AZN/EUR)	2.089	1.9035	1.9468
İlin sonuna məzənnə (AZN/GBP)	2.3021	2.2284	2.1529

Əlaqəli tərəflərlə əməliyyatlar. Hazırkı maliyyə hesabatlarının məqsədləri üçün tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun.

Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan əhəmiyyətli risk yaradan, hesabat tarixində gələcəklə bağlı əsas fərziyyələr və qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri ilə əlaqədar başlıca ehtimallar aşağıda müzakirə olunur.

Müfəttişlik qiymətləndirmə və fərziyyələrini maliyyə hesabatları hazırlandığı zaman mövcud olan parametrlərə əsaslandırmış və maliyyə hesabatlarında tanınmış məbləğlər müəyyən edildiyi zaman edilmiş qiymətləndirmə və fərziyyələri istifadə etmişdir. Lakin mövcud olan vəziyyət və gələcək dəyişikliklər haqqında fərziyyələr bazarda baş verən dəyişikliklərdən və ya Müfəttişliyin nəzarəti altında olmayan vəziyyətlərdən asılı olaraq dəyişə bilər. Həmin dəyişikliklər baş verdiyi zaman Rəhbərliyin fərziyyələrində öz əksini tapır. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti. Rəhbərlik, əmlak, avadanlıqların və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq köhnəlmə xərclərini müəyyən edir.

Bu təxminlər, Müfəttişliyin həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olanda rəhbərlik köhnəlmə xərcini artırır. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır.

Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu, gələcəkdə köhnəlmə dərəcələri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi. Bərpa edilə bilinməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitlərə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını müəyyən edir.

4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr (davamı)

Bu cür göstəricilərə aşağıdakılar daxildir: Müfəttişliyin biznes planlarında baş verən dəyişikliklər, qeyri-rentabelli fəaliyyətə gətirib çıxaran əmtəə qiymətlərində dəyişikliklər. Müfəttişlikdə qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər mövcud deyildir. Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair göstəricilərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

Dəyərsizləşmə, aktivin balans dəyəri onun bərpa oluna bilən dəyərindən artıq olduqda yaranır. Bərpa oluna bilən dəyər satış xərclərini çıxmaqla ədalətli dəyərin və ya istifadə dəyərinin daha yüksək olanı hesab olunur.

Satış xərclərini çıxmaqla ədalətli dəyər, qeyri-kommersiya əməliyyatlarında oxşar aktivlərin mütləq satışı əməliyyatlarından əldə edilən məlumatlar və ya əlavə satış xərclərini çıxmaqla müşahidə olunan bazar qiymətləri əsasında hesablanır. İstifadə dəyəri diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli ilə hesablanır.

Pul vəsaitlərinin hərəkəti növbəti beş il üzrə büdcədən götürülür və Müfəttişliyin hələ tərəf olmadığı restrukturizasiya əməliyyatlarını və ya yoxlanılan pul vəsaitlərini yaradan vahid aktivinin nəticələrini yaxşılaşdıracaq əhəmiyyətli gələcək investisiyaları daxil etmir.

Maliyyə aktivlərinin gözlənilən kredit zərəri üçün ehtiyat.

Ticarət debitor borcları. Ticarət debitor borcları üçün gözlənilən kredit zərəri hesablamaq məqsədilə Müfəttişlik ehtiyat matrisasından istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə gecikmə günlərinin sayına əsasən hesablanır.

Ehtiyat matrisası ilk öncə Müfəttişliyin keçmiş dövrlərdə müşahidə edilən defolt dərəcələrinə əsaslanır. Müfəttişlik ehtiyat matrisasını keçmiş kredit zərəri təcrübəsini gələcək yönümlü informasiyaya uyğunlaşdırmaq üçün düzəldir. Məsələn, əgər proqnozlaşdırılmış iqtisadi şəraitlərin (məsələn ümumi daxili məhsulun) növbəti illərdə pisləşəcəyi və bunun nəticəsində sektordakı defolt saylarının artacağı gözlənilirsə, keçmiş dövrlər üzrə defolt dərəcələrinə müvafiq düzəlişlər edilir. Keçmiş dövrlər ərzində müşahidə edilən defolt dərəcələrində düzəlişlər və proqnozlardakı dəyişikliklərin təhlili hər bir hesabat dövründə həyata keçirilir.

Keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələri, proqnoz iqtisadi şəraitləri ilə gözlənilən kredit zərəri ("ECL") arasındakı əlaqənin qiymətləndirilməsi əhəmiyyətli təxmin hesab edilir. ECL məbləği mövcud şərtlərin və proqnozlaşdırılmış iqtisadi şəraitlərin dəyişməsinə həssasdır. Həmçinin, Müfəttişliyin keçmiş dövrlər üzrə kredit zərəri ilə bağlı təcrübəsi və iqtisadi şəraitlərin proqnozu müştərinin gələcəkdə faktiki defolta uğramasını göstərməyə bilər.

Maliyyə hesabatlarına dərc edildikdən sonra əlavələr. Maliyyə hesabatlarına dərc edildikdən sonra hər hansı dəyişikliklərin edilməsi üçün bu maliyyə hesabatlarının dərc edilməsini rəsmiləşdirən Müfəttişliyin rəhbərliyinin təsdiqi tələb olunur.

Müfəttişlik növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür.

5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi

Cari ildə Müfəttişlik Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") və BMUSŞ-nın Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi ("BMHŞK") tərəfindən qəbul edilmiş, Müfəttişliyin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2020-ci il tarixində bitən il üzrə hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Aşağıdakı düzəlişlər 1 yanvar 2020-ci il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tətbiqi (davamı)

"Baza Faiz Dərəcəsi İslahatı" (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri). İslahatlar hedcinq edilmiş maddənin və ya hedcinq alətinin göstəricilərinə əsaslanan pul axınlarının vaxtı və/və ya məbləği ilə bağlı qeyri-müəyyənliyə səbəb olarsa, hedcinq əlaqəsi təsirə məruz qalır. Bu düzəlişlərin heç bir faiz dərəcəsi hedcinq əlaqəsi olmadığı üçün Müfəttişliyin maliyyə hesabatlarına təsiri yoxdur.

3 saylı MHBS Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş. Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək. Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır.

Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki, alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.

"Əhəmiyyətlilik" anlayışının yeni tərifi. MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir.

Yeni dəyişikliklər 1 saylı BMUS "*Maliyyə Hesabatlarının Təqdimatı"* və 8 saylı BMUS "*Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"*a şamil edilir. Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri. 16 saylı MHBS-ə edilmiş Düzəliş (15 may 2020-ci ildə dərc edilmiş) icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVİD-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etməlidir; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etsələr də, əvvəlki dövr rəqəmlərini yenidən tələb etmələrini tələb etmirlər.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvədədir. Erkən tətbiqinə icazə verilir. Bu standartın qəbul edilməsi maliyyə hesabatlarına hər hansı bir formada təsir etməmişdir.

6 Yeni Uçot Qaydaları

Maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Müfəttişlik tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin hazırda qəbul edilməmişdir.

17 saylı MHBS "Sığorta müqavilələri" 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir.

6 Yeni Uçot Qaydaları (davamı)

Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə 17 saylı MHBS "Sığorta müqavilələri"ni tətbiq etməlidir.

17 saylı MHBS, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. 15 saylı MHBS "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 saylı MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər (2020-ci il yanvar ayında dərc edilmiş). Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir.

Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir. Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-ə edilmiş Düzəliş (2020-ci ilin may ayında dərc edilmiş). Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş Maliyyə Hesabatlılığının Konseptual Əsaslarına istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsaslarına edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya 21 saylı BMHŞK "Təminatlar" çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial '2 gün' mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsaslarına istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırdı. Dəyişikliklər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və perspektivli şəkildə tətbiq olunur.

Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar- 16 saylı BMUS-a edilən düzəlişlər (2020-ci ilin may ayında dərc edilmiş) müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya ondan sonra istifadəyə verilə bilən əmlak, tikili və avadanlıqlara retrospektiv şəkildə tətbiq edilməlidir.

Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər (2020-ci ilin may ayında dərc edilmiş) müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər edir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

1 saylı MHBS "Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi". 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində 1 saylı MHBS-də "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi"ndə dəyişiklik etmişdir.

6 Yeni Uçot Qaydaları (davamı)

Dəyişiklik ana müəssisənin MHBS-ə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

9 saylı MHBS Maliyyə Alətləri - Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-ə düzəliş etmişdir.

Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Müfəttişlik müəssisənin bu düzəlişin ilk tətbiq olunduğu illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilən və ya mübadilə edilən maliyyə öhdəliklərinə düzəlişləri tətbiq edəcəkdir.

"41 saylı BMUS Kənd Təsərrüfatı" – Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018- 2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 41 saylı BMUS Kənd Təsərrüfatı Standartına dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır. Müəssisə düzəlişləri 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyər ölçmələrinə perspektivli şəkildə tətbiq edir. Düzəlişin erkən tətbiqinə icazə verilir.

10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi. 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Yuxarıda başqa cür göstərilmədiyi halda, yeni standartlar və şərhlərin Müfəttişliyin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

7 Pul Vəsaitləri və Onların Ekvivalentləri

	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
AZN hesab qalıqları	684,234	980,276	1,192,324
GBP hesab qalıqları	158,675	-	-
USD hesab qalıqları	-	26	-
EUR hesab qalıqları	-	-	9,734
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**842,909**	**980,302**	**1,202,058**

31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə pul vəsaitləri və onların ekvivalentləri "Azər Türk Bank" ASC-də saxlanılır.

8 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər

	Nəqliyyat vasitələri	Kompüter avadanlığı	Mebel və qurğular	Proqram təminatı və lisenziyalar	Cəmi əmlak, avadanlıq və qeyri-maddi aktivlər
31 dekabr 2018-ci il tarixə ilkin dəyər (yenidən təqdim edilmiş)	**213,550**	**62,755**	**28,448**	**-**	**304,753**
Əlavələr	-	89,885	3,925	201,833	295,643
31 dekabr 2019-ci il tarixinə dəyər	**213,550**	**152,640**	**32,373**	**201,833**	**600,396**
Əlavələr	-	-	4,800	-	4,800
31 dekabr 2020-ci il tarixinə dəyər	**213,550**	**152,640**	**37,173**	**201,833**	**605,196**
31 dekabr 2018-ci il tarixinə yığılmış köhnəlmə (yenidən təqdim edilmiş)	**(6,540)**	**(10,871)**	**(3,070)**	**-**	**(20,481)**
Köhnəlmə xərci	(21,355)	(28,428)	(6,165)	(16,914)	(72,862)
31 dekabr 2019-cu il tarixinə yığılmış köhnəlmə	**(27,895)**	**(39,299)**	**(9,235)**	**(16,914)**	**(93,343)**
Köhnəlmə xərci	(21,355)	(30,528)	(7,249)	(20,183)	(79,315)
31 dekabr 2020-ci il tarixinə yığılmış köhnəlmə	**(49,250)**	**(69,827)**	**(16,484)**	**(37,097)**	**(172,658)**
31 dekabr 2018-ci il tarixinə xalis qalıq dəyəri (yenidən təqdim edilmiş)	207,010	51,884	25,378	-	284,272
31 dekabr 2019-cu il tarixinə xalis qalıq dəyəri	185,655	113,341	23,138	184,919	507,053
31 dekabr 2020-ci il tarixinə xalis qalıq dəyəri	**164,300**	**82,813**	**20,689**	**164,736**	**432,538**

9 Ticarət və Digər Debitor Borcları

	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
Ticarət debitor borcları	2,147,206	2,312,272	2,019,831
Ticarət və digər debitor borclarının tərkibində cəmi maliyyə aktivləri	**2,147,206**	**2,312,272**	**2,019,831**
Cəmi ticarət və digər debitor borcları	**2,147,206**	**2,312,272**	**2,019,831**
	-	-	-
"CAA Regulation Tax" yığımları üzrə	913,299	1,398,019	1,293,209
"Civil Aviation cargo tax" yığımları üzrə	293,079	328,200	501,442
Digər xidmətlər üzrə	940,827	586,054	225,179
	2,147,206	**2,312,272**	**2,019,831**

10 Digər Aktivlər

	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
Əvəzləşdirilən ƏDV	22,083	16,387	-
Verilmiş avanslar	186,343	83,996	108,580
Cəmi digər aktivlər	**208,426**	**100,383**	**108,580**

11 Ticarət və Digər Kreditor Borcları

	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
Ticarət kreditor borcları	477,376	247,415	140,920
Ticarət və digər kreditor borclarının tərkibində cəmi maliyyə öhdəlikləri	**477,376**	**247,415**	**140,920**
Cəmi ticarət və digər kreditor borcları	**477,376**	**247,415**	**140,920**

12 Digər Öhdəliklər

	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)
Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar	81,060	83,639	45,769
Mənfəət vergisi öhdəliyi	-	12,628	76,041
Sosial ödənişlər üzrə öhdəliklər	18,239	18,818	10,298
Cəmi ticarət və digər kreditor borcları	**99,299**	**115,085**	**132,108**

13 Nizamnamə Kapitalı

"Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin ilkin dövrdə fəaliyyətini təmin etmək üçün nizamnamə fondu 1,000,000 AZN məbləğində formalaşmışdır.

14 Gəlirlər

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə gəlirlərin başlıca müqavilə şərtlərinə, əsas coğrafi bazara və icra öhdəliklərinin yerinə yetirilməsi vaxtı ilə bağlı gəlirlərin tanınmasına görə bölgüsü aparılmışdır:

	31 dekabr 2020-ci il tarixində bitən il	**31 dekabr 2019-cu il tarixində bitən il**	**31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)**
"CAA Regulation Tax" yığımı	800,672	3,309,040	3,382,788
"Civil Aviation Cargo Tax" yığımı	873,788	256,870	871,140
Cəmi yığımlar	**1,674,460**	**3,565,910**	**4,253,928**
Xidmətlər üzrə gəlirlər	870,797	1,039,674	976,548
Cəmi gəlirlər	**2,545,257**	**4,605,584**	**5,230,477**
Əsas coğrafi bazar			
Azərbaycan	2,545,257	4,605,584	5,230,477
	2,545,257	**4,605,584**	**5,230,477**
İcra öhdəliklərinin yerinə yetirilməsi vaxtına görə tanınma			
Konkret vaxtda trasnfer edilmiş mallar və xidmətlər	1,674,460	3,565,910	4,253,928
Dövr ərzində transfer edilmiş mallar və xidmətlər	870,797	1,039,674	976,548
	2,545,257	**4,605,584**	**5,230,477**

15 saylı MHBS müəssisənin müştəri ilə müqaviləni əldə etməsi və icra etməsi üçün çəkdiyi xərclərin açıqlamasını verməyini tələb edir. Müfəttişliyin fəaliyyətində bu cür xərclər olmadığı üçün müvafiq açıqlamalar hazırkı maliyyə hesabatlarında təqdim edilməmişdir. Eyni zamanda, Müfəttişlik müəyyən etmişdir ki, onun müştərilərlə müqavilələri əhəmiyyətli maliyyə komponentini nəzərdə tutmur və buna görə də, müvafiq açıqlamalar təqdim edilməmişdir.

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə debitor borcları və müqavilə üzrə öhdəliklər haqqında məlumat göstərilir:

	31 dekabr 2020-ci il	**31 dekabr 2019-cu il**	**31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)**
Ticarət debitor borcları	2,147,206	2,312,272	2,019,831

31 dekabr 2020-ci il tarixinə Müfəttişliyin orijinal gözlənilən müddəti bir ildən artıq olan heç bir icra öhdəliyi olmamışdır. Buna uyğun olaraq, 15 saylı MHBS-də göstərilən istisnadan istifadə edilməklə, icra öhdəlikləri haqqında heç bir məlumat açıqlanmamışdır.

15 Digər gəlirlər

Digər gəlirlərə tender iştirakçılarından əldə edilmiş iştirak haqları daxildir.

16 İşçi heyəti ilə bağlı xərclər

	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Əmək haqqı xərci	1,609,122	1,658,992	872,291
Mükafat xərci	701,874	1,333,139	602,786
Ezamiyyə xərcləri	25,944	237,928	235,287
İşçilərlə bağlı digər xərclər	20,005	124,386	383,565
Cəmi işçi heyəti ilə bağlı xərclər	**2,356,945**	**3,354,445**	**2,093,929**

17 Sertifikatların verilməsi üzrə xidmət haqqı

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi ilə Müfəttişlik arasında bağlanılmış sazişə əsasən, birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində alınmış xidmətlər üzrə gəlirlərdən 30% məbləğdə xidmət haqqı rüblük hesablanır.

	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Xidmətlər üzrə gəlirlər	870,797	1,039,674	976,548
Birgə fəaliyyətə cəlb edilməyən xidmətlər üzrə gəlirlər	-	(23,429)	- 9,677
Cəmi birgə fəaliyyət gəliri	870,797	1,016,245	966,872
Sazişə əsasən xidmət haqqı (faizlə)	30%	30%	20%
Sertifikatların verilməsi üzrə xidmət haqqı	261,239	304,874	193,374

18 Agent komissiya xərci

"ASG Business Aviation" MMC-nin (daha əvvəl "Silk Way Business Aviation" MMC) GHC filialı ilə müfəttişlik arasında imzalanan müqaviləyə əsasən, müqavilənin həyata keçirilməsi çərçivəsində toplanmış "CAA Regulation Tax" yığımının 5 (beş) faizini SWBGH komissiya yığımı şəklində özündə saxlayır.

19 Digər Xərclər

	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Təhlükəsizlik xərcləri	87,061	76,841	89,332
Təmizlik xərcləri	74,466	63,920	75,425
İcarə xərci	47,600	88,400	40,800
Sair xərclər	5,216	6,988	8,264
Peşəkar xidmətlər	35,092	125,762	75,827
Yanacaq xərcləri	19,424	21,979	9,533
Bank komissiya xərci	8,954	13,441	9,223
Ofis xərcləri	7,259	66,853	59,323
Sığorta xərcləri	3,953	35,000	16,064
Cəmi digər xərclər	**289,025**	**499,184**	**383,791**

20 Mənfəət vergisi

Müfəttişlik mənfəət vergisini Azərbaycan Respublikası Vergi Məcəlləsinin 130.4.-cü maddəsinə uyğun olaraq kassa metodu ilə hesablamışdır. 31 Dekabr 2020-ci və 31 dekabr 2019-cu illər üzrə mənfəət vergisi müvafiq olaraq 0 manat və 12,051 AZN olmuşdur.

21 Təəhhüdlər və Şərti Öhdəliklər

Məhkəmə prosedurları. Müəyyən dövrlərdə və əməliyyatların normal gedişi zamanı Müfəttişliyə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik öz ehtimallarına və Müfəttişliyin mütəxəssislərinin məsləhətinə əsasən iddialarla bağlı heç bir əhəmiyyətli zərərin yaranmayacağını hesab edir və müvafiq olaraq, bu maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

Vergi qanunvericiliyi. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Müfəttişliyin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fiskal fəaliyyət dövrü yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Müfəttişliyin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Müfəttişliyin mövqeləri qorunacaq və Müfəttişliyin potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

22 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar

Müfəttişlik dövlət müəssisələri ilə əlaqədar 24 saylı "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər, ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Lakin Müfəttişlik olaraq 31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə əhəmiyyətli qalıqları və əməliyyatları müəyyən etmiş və onları aşağıdakı cədvəldə açıqlamışdır:

		Əlaqəli tərəflərə ödəniləcək məbləğlər
Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi	**2020**	250,298
Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi	**2019**	121,993
Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi	**2018**	81,112

22 Əlaqəli Tərəflərlə Qalıqlar və Əməliyyatlar (davamı)

Baş rəhbərlik üzvlərinə ödənişlər

Müfəttişliyin baş rəhbərlik üzvlərinə Müfəttişliyin İdarə Heyətinin sədri və iki üzvü daxildir. Baş rəhbərlik heyəti təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq Müfəttişlik tərəfindən əmək haqqı və mükafatlarla təmin edilir. Baş rəhbərlik üzvlərinə ödənişlər aşağıdakı cədvəldə göstərilmişdir:

	31 dekabr 2020-ci il tarixində bitən il	31 dekabr 2019-cu il tarixində bitən il	31 dekabr 2018-ci il tarixində bitən il (yenidən təqdim edilmiş)
Qısamüddətli ödənişlər - əmək haqları və mükafatlar	266,563	318,656	175,074
Sosial xarakterli ödənişlər	59,977	71,698	39,392

	Hesablanmış əmək haqqı	Hesablanmış əmək haqqı	Hesablanmış əmək haqqı
İdarə Heyətinin sədri	103,288	112,854	64,985
İdarə Heyətinin sədrinin müavini	163,275	205,802	110,088

	İşçilərlə bağlı sosial xarakterli ödənişlər	İşçilərlə bağlı sosial xarakterli ödənişlər	İşçilərlə bağlı sosial xarakterli ödənişlər
İdarə Heyətinin sədri	23,240	25,392	14,622
İdarə Heyətinin sədrinin müavini	36,737	46,305	24,770

23 Maliyyə Risklərinin İdarə Edilməsi

Müfəttişliyin əsas maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları daxildir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Müfəttişliyin əməliyyatlarını maliyyələşdirməkdir. Müfəttişliyin əsas maliyyə aktivlərinə onun birbaşa fəaliyyətindən əldə etdiyi pul vəsaitləri və onların ekvivalentləri, ticarət debitor borcları və investisiyalar daxildir. Müfəttişliyin adi fəaliyyət gedişində o, müxtəlif maliyyə risklərinə məruz qalır: bazar riski, kredit riski və likvidlik riski.

Müfəttişlikdə risklərin idarə edilməsi proqramı maliyyə bazarlarının qeyri-müəyyənlini nəzərə alaraq Müfəttişliyin maliyyə nəticələrinə potensial mənfi təsirləri minimallaşdırmağa çalışır.

Risklərin idarə edilməsi Müfəttişliyin rəhbərliyi tərəfindən Müfəttişliyin əməliyyat vahidləri ilə sıx əlaqədə həyata keçirilir. Rəhbərlik riskləri minimal qəbul edilən səviyyəyə gətirmək üçün bütün lazımi addımları atır.

Bazar riski. Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar qiymətlərindəki dəyişikliklər səbəbindən dəyişkən olacağı riskidir. Müfəttişliyin məruz qaldığı bazar riskinə əsasən faiz dərəcəsi riski və valyuta riski aiddir.

Faiz dərəcəsi riski. Müfəttişlik bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. 31 dekabr 2020-ci və 2019-cu il tarixinə Müfəttişlik dəyişən faizli qeyri-kommersiya maliyyə aktiv və öhdəliklərinə malik olmadığına görə əhəmiyyətli dərəcədə faiz dərəcəsi riskinə məruz qalmamışdır.

23 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Xarici vayuta riski.

Valyuta riski ilə əlaqədar rəhbərlik valyuta təsirinə məruz qalma səviyyəsi üzrə limitlər təyin edir. Mövqelərə nəzarət edilir.

Müfəttişlik beynəlxalq əməliyyatlarda iştirak edir və müxtəlif valyuta təsirlərindən, xüsusilə də ABŞ Dolları ilə bağlı yarana biləcək xarici valyuta mübadiləsi riskinə məruz qalır.

Xarici valyuta mübadiləsi riski gələcək kommersiya əməliyyatlarının Müfəttişliyin funksional valyutası olmayan valyutada ifadə edilməsi zamanı meydana gəlir.

Rəhbərlik Müfəttişliyin funksional valyutasına qarşı xarici valyuta mübadiləsi riskini idarə etməsini tələb edən siyasət hazırlamışdır. Müfəttişliyin monetar aktiv və öhdəliklərinin valyutalar üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilmişdir:

	31 dekabr 2020-ci il			**31 dekabr 2019-cu il**			**31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)**		
	Maliyyə aktivləri	**Maliyyə öhdəlikləri**	**Xalis mövqe**	**Maliyyə aktivləri**	**Maliyyə öhdəlikləri**	**Xalis mövqe**	**Maliyyə aktivləri**	**Maliyyə öhdəlikləri**	**Xalis mövqe**
GBP	158,675	-	158,675	-	-	-	-	-	-
USD	-	-	-	26	-	26	-	-	-
EUR	-	-	-	-	-	-	9,734	-	9,734
Cəmi	**158,675**	**-**	**158,675**	**26**	**-**	**26**	**9,734**	**-**	**9,734**

Aşağıdakı cədvəl mənfəət və ya zərər və kapital maddələrinin bütün digər amillərin sabit qaldığı şəraitdə hesabat dövrünün sonuna tətbiq edilmiş valyuta məzənnələrindəki mümkün dəyişiklikliyə qarşı həssaslığını əks etdirir:

	31 dekabr 2020-ci il		**31 dekabr 2019-cu il**		**31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)**	
	AZN/GBP +10%	**AZN/GBP -10%**	**AZN/GBP +10%**	**AZN/GBP -10%**	**AZN/GBP +10%**	**AZN/GBP -10%**
Mənfəət və ya zərərə təsiri	15,868	(15,868)	-	-	-	-
Kapitala təsiri	15,868	(15,868)	-	-	-	-

	31 dekabr 2020-ci il		**31 dekabr 2019-cu il**		**31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)**	
	AZN/USD +10%	**AZN/USD -10%**	**AZN/USD +10%**	**AZN/USD -10%**	**AZN/USD +10%**	**AZN/USD -10%**
Mənfəət və ya zərərə təsiri	-	-	3	(3)	-	-
Kapitala təsiri	-	-	3	(3)	-	-

	31 dekabr 2020-ci il	**31 dekabr 2019-cu il**	**31 dekabr 2018-ci il (yenidən təqdim edilmiş)**

23 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

	AZN/EUR +10%	AZN/EUR -10%	AZN/EUR +10%	AZN/EUR -10%	AZN/EUR +10%	AZN/EUR -10%
Mənfəət və ya zərərə təsiri	-	-	-	-	973	(973)
Kapitala təsiri	-	-	-	-	973	(973)

31 dekabr 2020-ci və 31 dekabr 2019-cu il tarixlərinə Müfəttişliyin maliyyə aktiv və öhdəliklərinin valyutalar üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilmişdir:

	AZN	GBP	USD	EUR	Cəmi
Maliyyə aktivləri					
Pul vəsaitləri və onların ekvivalentləri	684,234	158,675	-	-	842,909
Ticarət və digər debitor borcları	2,147,206	-	-	-	2,147,206
	2,831,440	**158,675**	**-**	**-**	**2,990,115**
Maliyyə öhdəlikləri					
Ticarət və digər kreditor borcları	477,376	-	-	-	477,376
	477,376	**-**	**-**	**-**	**477,376**
31 dekabr 2020-ci il xalis valyuta mövqeyi	**2,354,064**	**158,675**	**-**	**-**	**2,512,739**

	AZN	GBP	USD	EUR	Cəmi
Maliyyə aktivləri					
Pul vəsaitləri və onların ekvivalentləri	980,276	-	26	-	980,302
Ticarət və digər debitor borcları	2,312,272	-	-	-	2,312,272
	3,292,548	**-**	**26**	**-**	**3,292,574**
Maliyyə öhdəlikləri					
Ticarət və digər kreditor borcları	247,415	-	-	-	247,415
	247,415	**-**	**-**	**-**	**247,415**
31 dekabr 2019-cu il tarixinə xalis valyuta mövqeyi	**3,045,133**	**-**	**26**	**-**	**3,045,159**

23 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

	AZN	GBP	USD	EUR	Cəmi
Maliyyə aktivləri					
Pul vəsaitləri və onların ekvivalentləri	1,192,324	-	-	9,734	1,202,058
Ticarət və digər debitor borcları	2,019,831	-	-	-	2,019,831
	3,212,155	**-**	**-**	**9,734**	**3,221,889**
	-	-	-	-	-
Maliyyə öhdəlikləri	-	-	-	-	-
Ticarət və digər kreditor borcları	140,920	-	-	-	140,920
	140,920	**-**	**-**	**-**	**140,920**
31 dekabr 2018-ci il tarixinə xalis valyuta mövqeyi (yenidən təqdim edilmiş)	**3,071,235**	**-**	**-**	**9,734**	**3,080,969**

Kredit riski. Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə, Müfəttişliyin maliyyə itkisi ilə üzləşəcəyi riskdir. Müfəttişliyin kredit riskinə məruz qalan maliyyə alətləri əsasən ticarət debitor borclarıdır.

Likvidlik riski. Likvidlik riski aktiv və öhdəliklərin geri ödənilmə tarixlərinin uyğun gəlmədiyi hallarda mövcud olur. Müfəttişlikin 31 dekabr 2020-ci, 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə likvidlik çatışmazlığı üzrə təhlili aşağıdakı cədvəldə göstərilmişdir:

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	842,909	-	-	842,909
Ticarət və digər debitor borcları	-	2,147,206	-	2,147,206
	842,909	**2,147,206**	**-**	**2,990,115**
	-	-	-	-
Maliyyə öhdəlikləri	-	-	-	-
Ticarət və digər kreditor borcları	-	477,376	-	477,376
	-	**477,376**	**-**	**477,376**
31 dekabr 2020-ci il tarixinə likvidlik çatışmazlığı	**842,909**	**1,669,830**	**-**	**2,512,739**
31 dekabr 2020-ci il tarixinə məcmu likvidlik çatışmazlığı	**842,909**	**2,512,739**	**2,512,739**	

23 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	980,302	-	-	980,302
Ticarət və digər debitor borcları	-	2,312,272	-	2,312,272
	980,302	**2,312,272**	**-**	**3,292,574**
	-	-	-	-
Maliyyə öhdəlikləri	-	-	-	-
Ticarət və digər kreditor borcları	-	247,415	-	247,415
	-	**247,415**	**-**	**247,415**
31 dekabr 2019-cu il tarixinə likvidlik çatışmazlığı	**980,302**	**2,064,857**	**-**	**3,045,159**
31 dekabr 2019-cu il tarixinə məcmu likvidlik çatışmazlığı	**980,302**	**3,045,159**	**3,045,159**	

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	1,202,058	-	-	1,202,058
Ticarət və digər debitor borcları	-	2,019,831	-	2,019,831
	1,202,058	**2,019,831**	**-**	**3,221,889**
	-	-	-	-
Maliyyə öhdəlikləri	-	-	-	-
Ticarət və digər kreditor borcları	-	140,920	-	140,920
	-	**140,920**	**-**	**140,920**
31 dekabr 2018-ci il tarixinə likvidlik çatışmazlığı (yenidən təqdim edilmiş)	**1,202,058**	**1,878,911**	**-**	**3,080,969**
31 dekabr 2018-ci il tarixinə məcmu likvidlik çatışmazlığı (yenidən təqdim edilmiş)	**1,202,058**	**3,080,969**	**3,080,969**	

24 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

- 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş)
- 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və
- 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir.

24 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür.

Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə tanınan maliyyə alətləri mövcud olmamışdır.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər

Üç aydan artıq ödəmə müddəti olan aktiv və öhdəliklərin balans dəyəri belə maliyyə aktivlərinin ödəmə müddətlərinin nisbətən qısa olması ilə əlaqədar olaraq təxminən onların ədalətli dəyərini əks etdirir. Sair maliyyə alətlərinin ədalətli dəyəri oxşar kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün ilin sonuna müvafiq bazar dərəcələri ilə diskontlaşdırılmış gələcək pul axınlarının cari dəyəri kimi hesablanır.

Rəhbərlik hesab edir ki, maliyyə hesabatlarında tanınmış maliyyə aktiv və öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir və ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilmişdir.